

Kişilik, məğrurluq, əyilməzlik, simvolu olan Cahandar ağa... Öz obasının, elinin, ailəsinin, yaşadığı mühitin qeyrət və namusunu qorumağı bacaran qorxmaz, mərd kişi. XX əsr ədəbiyyatının və kinosunun baş qəhrəmanı. Bəli, məhz baş qəhrəmanı. Sünilikdən, bayağılıqdan uzaq, təbii çalarla boyanmış qeyrət simvolu.

# Cahandar ağa doğulsaydı...

Cahandar ağadan söhbət başlayan kimi bu surəti düşünüb yaradan qeyrətli kişi - İsmayıl Şıxlı düşür yadıma.

XIX əsr kişisini XX əsr ədəbiyyatında ölməz bir obraza çevirən İsmayıl Şıxlı öz ağayanalığı, qeyrətliliyi ilə obrazla müəllif eyniyyətini öz ədəbi möhürü ilə "möhürləyib".

Cəmiyyətdə öz qeyrətli fikirləri, həqiqəti müdafiə edərkən insani keyfiyyətlərdən kənara çıxmaması qəlbimizdə yazıçı, şəxsiyyət, deputat, ən başlıcası isə İNSAN Ismayıl Şıxlıya bir əbədi yer ayırdı.

Cahandar ağanı yaratmaq üçün isə məhz İsmayıl Şıxlı olmaq gərəkdir. Şəxsiyyətlər isə doğulduqları cilddə cəmi bir dəfə dünyaya gəlirlər. Bəlkə də İsmayıl müəllim elə Cahandar ağanı yaratmaq üçün gəlibmiş bu dünyaya...

Düşünürəm ki, birdən Cahandar ağa yenidən dünyaya gəlsəydi neylərdi?! Dövrünün nüfuz və qeyrət simvolu olan bu kişi razılaşardımı həyatımızla? Deyirəm, o kişi yəqin ki, aynalısı ilə bugünkü lüt-üryanları, yarımçılpaqları nışan alar, atmazdı. Qıymazdı bu müqəddəs Vətən torpağına onların qanı hopsun. Axı o qanın hopduğu yerdən yeni qarğı - qamış bitər və İsgəndər Zülqərneynin buynuzunun olmasını izhar edən tütəklərə çevrilərdi.

Odur ki, Cahandar ağa onları öz zəhmi, zabitəli baxışı ilə yox edərdi. Qıymazdı bu qarmaqarışıq qanlıların murdar qanlarının Vətən torpağına hopmasına.

XX əsr öz fitnə-fəsadlarıyla, dünyanı çalxalayan istilaçı müharibələri ilə tarixə çevrildi. Düzdür, bu əsrin aeroplanları, kosmik peykləri, mobil telefonları, kompüterləri, rəngli televizorları da bizə qaldı...

Amma XX əsr ən çox doğma torpaqlarımızın -Zəngəzurumuzun, Göyçəmizin, Qarabağımızın işğal tarixi kimi yadda qaldı. Bu əsrdə elə bil yağı kəsildi bizə qonumqonşu...

Bəs XX əsrdə yol verdiyimiz səhvləri necə düzəldək? Elə bircə Vətən qeyrətini hakimiyyətdə olmaqla çəkməkmi olar.

Görəsən, bu gün dilənçi torbasını boyunlarına keçirib, qapı-qapı (bəzən düşmən qapısında da!) qəpik-quruş "dilənənlər" vətən övladı deyillərmi?! Bugünkü inkişafımıza, tərəqqiyə qara eynək arxasından baxanların fikri nədir?

Oğlan kimi dünyaya gələn övladlarını ordudan yayındırmaqla onlara "qız qeyrəti" aşılayan, bir parça kağızlarda pəhləvan cüssəli oğlanları xəstə yazdıran vətənpərvərlərimizin fikri nədir?

Bax, beləcə fikirləşəndə yenə yadıma sırğa, bilərzik, qolbaq taxan "kişi qırıqları" düşür. Qaşını aldıran, burnunu, nə bilim, ora-burasını əməliyyat etdirən kişi qırıqları. Neyniyək, indi Cahandar ağanı çağıraq məclislərə ki, öz aynalısı ilə...

Həm qaşı-gözü yerində olmayan kişiciklərə, həm də geyiminin yarısı yerində olmayan gəlinlərin qeyrətini çəkəcək kişilərə dərs vermək üçün.

Lap abırdan getmişik. Toylarda "Vağzalı" əvəzinə "Lambada" çalırlar... Əcayib musiqilər səsləndirirlər. Duvaqlı, abır-ismətli gəlin əvəzinə, yarımçılpaq gözəlçələri bizə sırıyırlar. Özü də ayıb-ayıb bədənlərinin yarısının tam çöldə olduğu halda başına duvaq salınmış şəkildə.

Bu azmış kimi dədə-baba qaydası ilə şərbət məclisi əvəzinə şampan fontanı təşkil edir və ömrüboyu dadmadığı nemətdən haram olsa belə təzə gəlinə daddırırlar. Sonra da elə oradaca təzəbəy duvağı geri atıb, gəlinin düz alnının ortasından öpür. Niyə? Bilmirəm... yarımlüt olduğuna görəmi, yoxsa şərab içdiyinə görəmi.

Yazıq Cahandar ağa dözməzdi bu dərdə.

Yəqin ki, XXI əsrin ən dəbdə olan xəstəliyi ilə - infarktla dəyişərdi dünyasını...



Yazıq İsmayıl Şıxlı... Yəqin ki, yaşasaydı intihar edərdi. ( Bu intihar sözü də çox moddadı.) Ya da ki, yazıçı olmazdı.

Neyniyəcəkdin, ay mənim yazı ustadım, qeyrət qələm? Sən də Dubaya arvad daşıyan, dilimlə səsləndirə bilmədiyim bir peşə haqqında çoxseriyalı filmlər ssenarisimi yazacaqdın? Yazmazdın. Intihar yolunu seçər, yaxud da çəkilərdin öz Şıxlına. Niyə? Ona görə ki, ən azından sən qeyrətli kişi idin, ustad!

İndi XXI əsrdir. Nizamini, Füzulini daşqalaq etməyə, R.Rzanı, S.Vurğunu, İ.Əfəndiyevi, İ.Şıxlını və onlarla başqa klassiklərimizin əsərlərini tonqalında yandırmağa hazır olan bir topa "ağ şeirçi"lərin əsri...

Düzdü, bu gün ədəbiyyatda inkişaf, tərəqqi çox böyükdür. Gələcəyin Nizamisi, Füzulisi olacaq gənc yazarlarımızdan da kimsənin adını çəkib, adı çəkilməyənlərin davasına düşmək istəmirəm. Yaman dəbdədir qalmaqal sözü...

Son sözü bizə tarix deyəcək. Qoca tarix, amma biz də susa bilmərik...

Mənəviyyatımızı qorumaq isə hər birimizin borcudur. Gəlin bir az düşünək...

Vaqif ALIYEV